**UOT 338.43**

***Jalə Məmmədəli qızı ƏFƏNDİYEVA***
***Azərbaycan Dövlət İqtisad Universiteti***
***efendiyeva.jala@gmail.com***

# AQRAR SƏNAYE MÜƏSSİSƏLƏRİNİN MALİYYƏ RESURSLARINA ÇIXIŞ İMKANLARININ MÜASİR VƏZİYYƏTİ

***Xülasə***

**Tədqiqatın məqsədi:** aqrar sənaye müəssisələrinin maliyyə resurslarına çıxış imkanlarının müasir vəziyyətinin təhlil edilməsi və yeni maliyyə mənbələrinin müəyyən edilməsi.

**Tədqiqatın metodologiyası:** - aqrar sənaye müəssisələrində maliyyələşmə mənbələri kimi çıxış edən dövlət büdcəsi vəsaitləri, kreditlər, investisiyalar, bank vəsaitləri və s. üzrə yeni yanaşmanın tətbiqi vasitəsilə təkmilləşdirilmələrin tətbiq edilməsi.

**Tədqiqatın tətbiqi əhəmiyyəti**: aqrar sənaye müəssisələrinin maliyyələşməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitlərin, eləcə də, kredit və investisiyaların səmərəli şəkildə istifadəsi, onların təkmil mexanizmləri vasitəsilə istehsal prosesinə cəlb edilməsi sahənin inkişafını yüksəldən mənbə kimi çıxış edəcəkdir.

**Tədqiqatın nəticələri**: aqrar sənaye kompleksinin fəaliyyətinin maliyyələşdirilməsinin mövcud mənbələrinin təkmilləşdirilməsi, bu sahədə lizinq əməliyyatlarının genişləndirilməsi və faktorinq əməliyyatlarının yeni olaraq tətbiq olunması nəticə olaraq təklif olunmuşdur.

**Tədqiqatın orjinallığı və elmi yeniliyi**: - aqrar sənaye müəssisələrinin maliyyələşməsinin yaxşılaşdırılması üçün dövlət büdcəsi, kredit və investisiyalarla yanaşı bank lizinqinin və faktorinq əməliyyatlarının tətbiq olunması yeni bir maliyyələşmə mənbəyi kimi irəli sürülür.

***Açar sözlər: aqrar-sənaye kompleksi, kreditlər, investisiya, subsidiya, bank-maliyyə amilləri.***

## *Giriş*

Ölkə iqtisadiyyatında spesifik xüsusiyyətlərə malik olan kənd təsərrüfatı və onun bazası əsasında fəaliyyət göstərən aqrar sənaye müəssisələri öz fəaliyyətlərində yüksək risklərlə qarşılaşdıqlarından onların maliyyə mənbələrinə çıxışları bir sıra məhdudiyyətlərlə xarakterizə olunur. Bu sahədə fəaliyyətin riskli olması, əldə edilə biləcək nəticələrin şübhə altında olması, bu sahənin fəaliyyətinin çoxsaylı amillərin təsiri altında mənfi meyillərlə qarşılaşa biləcəyinin yüksək səviyyədə olması çox zaman investorları bu sahəyə vəsait qoyuluşlarından çəkindirir.

İnvestorlar çox zaman vəsaitləri daha tez və daha çox gəlir götürə bildikləri fəaliyyət istiqamətlərinə yönəldirlər. Aqrar-sənaye kompleksləri isə belə xarakterə malik olmadığından bu sahələrdəki müəssisələrin fəaliyyətində resurslara çıxış heç də asan və rahat olmur. Aqrar-sənaye kompleksi müəssisələrinin zərurət olduqda maliyyə resurslarına çıxış variantları, vəsaitlərin əldə olunma vəziyyəti, bu vəziyyətin yaratmış olduğu parametrlər həmişə diqqət mərkəzində olmuşdur.

Aqrar sənaye kompleksi ölkədə aparılan iqtisadi siyasətin prioritetinə çevrilən diversifikasiyanın həyata keçirilməsində mühüm rola malikdir. Bu kompleks bir tərəfdən əhalinin gündəlik tələbat malları ilə təmin edilməsində, digər tərəfdən ərzaq təhlükəsizliyinin təmin edilməsində, bir tərəfdən isə qeyri-neft sektorunun inkişaf etdirilməsində yüksək əhəmiyyətə malikdir. Bu parametrləri ilə yanaşı aqrar-sənaye kompleksinin fəaliyyəti bütövlükdə əhalinin sosial rifah halının yaxşılaşdırılması, ekoloji cəhətdən təmiz məhsulların istehsal edilməsi, regionlarda əmək qabiliyyətli əhalinin məşğulluq problemlərinin həll edilməsi, işsizlik səviyyəsinin aşağı salınması, münbit torpaqlardan səmərəli istifadə olunması, regionlarda sahibkarlığın inkişaf etdirilməsi, müxtəlif ölçülü fermer təsərrüfatlarının yaradılması, yeni emal müəssisələrinin yaradılması üçün baza rolunu oynayır.

Aqrar-sənaye kompleksinin qarşısında duran vəzifələrin xarakterini, onların əhəmiyyətini, ölkə iqtisadiyyatındakı vacibliyini əsas tutan dövlət bu sektoru daimi olaraq diqqət mərkəzində saxlayır

və ona öz dəstəyini göstərir. Dövlətin bu sahəyə dəstəyi özünü vergi güzəştlərində, girovsuz kreditlərin verilməsində, müxtəlif məqsədlərlə subsidiyaların ayrılmasında, kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin fəaliyyətinin sürətləndirilməsi məqsədi ilə bank-maliyyə mexanizminin təkmilləşdirilməsində və s. göstərir.

Sözügedən kompleksin hərtərəfli inkişaf etdirilməsi, onun fəaliyyətinin düzgün təşkil olunması, idarə edilməsi, tənzimlənməsi və sonda səmərəli nəticələrə gətirib çıxarması məsələləri, eyni zamanda icra olunması zəruri olan parametrlərin hər biri öz əksini dövlət sənədlərində tapır. Belə sənədlərdən biri də 2016-cı ildə ölkə Prezidentinin 6 dekabr tarixli tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilən “Azərbaycan Respublikasında Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”dir. Bu sənəddə aqrar-sənaye kompleksi müəssisələri və eləcə də kənd təsərrüfatı emalı müəssisələri qarşısında dayanan və həlli bütövlükdə cəmiyyət üçün, iqtisadiyyat üçün və hər bir vətəndaş üçün zəruri olan məsələlərin həlli istiqamətləri və üsulları müəyyən edilmişdir. (1)

Aqrar-sənaye müəssisələrinin fəaliyyətinin dayanıqlığının, davamlı olmasının təmin edilməsi cəmiyyət üçün həmişə aktual olmuşdur, bu gün də aktualdır və aktuallığını gələcəkdə də saxlayacaqdır. Çünki bu sahə özünün malik olduğu parametrlərlə daimi olaraq iqtisadiyyatın inkişafının və cəmiyyət üzvlərinin sosial rifahının yaxşılaşmasının aparıcı elementi kimi çıxış edir. Bu baxımdan da aqrar sənaye kompleksinin fəaliyyətinin fasiləsizliyinin təmin edilməsi üçün bütün amillərin, o cümlədən də bu kompleksin maliyyə resurslarına çıxışının təmin edilməsi vacib məsələlərdən biridir.

**Aqrar-sənaye müəssisələrinin maliyyə vəsaitlərinə çıxış istiqamətləri**

İqtisadiyyatın bütün sahə və sektorlarının fəaliyyətinin təmin edilməsində həlledici rol maliyyələşmə məsələlərinə məxsusdur. İstənilən iqtisadi subyektin, sahə və sektorun uğurlu, səmərəli fəaliyyətinin əsasını onun maliyyə resursları ilə təmin edilməsi səviyyəsi təşkil edir. Məhz bu amili nəzərə alaraq dövlət həmişə iqtisadiyyatın bütün sahələrinin zəruri səviyyədə maliyyə vəsaitləri ilə təmin edilməsini özünün mühüm vəzifəsi kimi qəbul edərək bu istiqamətdə qərarlar verir. Məhz bu baxımdan da aqrar-sənaye müəssisələri həmişə dövlətin diqqət mərkəzində olmuşdur.

Təhlillər göstərir ki, qeyd edilən istiqamətdə aqrar-sənaye müəssisələrinin maliyyələşməsi mənbələrinə dövlət büdcəsini, investisiyaları, kreditləri, bank vəsaitlərini, lizinq vəsaitlərini, faktorinq üzrə vəsaitləri, subsidiyaları və s. aid etmək olar. Ölkə iqtisadiyyatının digər sahələri ilə müqayisədə aqrar sektor həm səmərəlilik, həm də əmək məhsuldarlığının səviyyəsinə görə digər sahələrdən geridə qalır. Məhz bu səbəbdən də bu sektorun daimi olaraq vaxtlı-vaxtında maliyyə resursları ilə təmin olunması zərurəti mövcud olur. Bu şərti nəzərə alaraq dövlət aqrar sektorun maliyyələşməsi məsələsini ön plana çəkir.

Araşdırmalar göstərir ki, aqrar sektorun maliyyələşməsində mühüm əhəmiyyət kəsb edən mənbələrdən biri dövlət büdcəsidir. Hər il mütəmadi olaraq dövlət büdcəsindən kənd təsərrüfatının fasiləsiz inkişafının təmin edilməsi üçün vəsaitlər ayrılır. Dövlət büdcəsi xərclərinin bir hissəsini təşkil etməklə bu vəsaitlər iqtisadi inkişafa əsaslı təsir edir. Təhlillər göstərir ki, 2013-2020-ci illər ərzində ölkəmizdə dövlət büdcəsindən “Kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq, ətraf mühitin mühafizəsi” üçün xərclər ayrılır. Dövlət Statistika Komitəsinin verdiyi məlumatlara əsasən 2013-2020-ci illər ərzində təkcə 2017-ci il istisna olmaqla kənd təsərrüfatına ayrılan büdcə vəsaitlərinin dinamikasında artım müşahidə olunmuşdur. (Cədvəl 1)

Cədvəldən göründüyü kimi əvvəlki il ilə müqayisədə artım 2013-cü ildə 4,2%, 2014-cü ildə 15,44% və ya 75,2 mln manat, 2015-ci ildə 5,9 % və ya 33 mln manat, 2016-cı ildə 0,07 % və ya 0,5 mln manat, 2018-ci ildə 26,8 % və ya 138,8 mln manat, 2019-cu ildə 30,7 % və ya 201,5 mln manat, 2020-ci ildə isə 40 % və ya 342,9 mln manat olmuşdur. Təhlillərdən görünür ki, böhrandan əvvəl ən yüksək artım 15,4% olmaqla 2014-cü ildə qeydə alınmışdır. Sonrakı üç il ərzində həmin il ilə müqayisədə azalma olmuş və hətta 2017-ci ildə mənfi dinamika qeydə alınmışdır. 2018-ci ildən, yəni böhrandan sonrakı bərpa ilindən başlayaraq hər il artımla müşahidə edilən dinamika mövcud olmuş və 2020-ci ildə təhlil edilən göstərici maksimum həddə çatmışdır (2).

**Cədvəl 1.**

**2013-2020-ci illərdə dövlət büdcəsindən kənd təsərrüfatı, meşə təsərrüfatı, balıqçılıq, ovçuluq, ətraf mühitin mühafizəsinə ayrılan xərclərin dinamikası**

| İllər / Göstəricilər | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|
| Ayrılan vəsaitlər (mln manat) | 488.4 | 563.2 | 596.6 | 597.1 | 517.7 | 656.5 | 858.0 | 1200.9 |
| Artım və azalma (+; -) %-lə | +4.2 | +15.4 | +5.9 | +0.07 | -13.3 | +26.8 | +30.7 | +40.0 |

*Mənbə (2): Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Araşdırmalar göstərir ki, böhran dövründə milli valyutanın devalvasiyaya uğraması ilə ölkəmizdə idxal edilən kənd təsərrüfatı məhsullarının qiyməti artmışdır. Bu səbəbdən də iqtisadiyyatda yerli məhsulların istehsalına tələbat güclənmişdir. Məntiqə uyğun olaraq bu proses aqrar sektora maliyyə təminatının gücləndirilməsi zərurətini yaratmışdır. Ölkədə mövcud olan daxili istehlakı ödəmək məqsədilə hökumət aqrar sektora ayrılan büdcə vəsaitlərini artırmışdır.

Aqrar sektorda fəaliyyətin fasiləsizliyinin təmin edilməsi baxımından mühüm maliyyələşmə rolu oynayan mənbələrdən biri də bu sahədə **əsas kapitala yönəldilmiş investisiyalardan** ibarətdir. Hər bir sahə və sektora investisiyanın cəlb edilməsi həmin sahənin inkişaf səviyyəsindən və fəaliyyətin səmərəlilik səviyyəsindən asılı olur.

Ölkəmizdə aparılan diversifikasiya siyasətinin və qeyri-neft sektorunun inkişafının əsas poliqonu olmaqla kənd təsərrüfatına investisiya cəlbediciliyinin artırılması mühüm məqsəd kimi qarşıda durmalıdır. Bu proses aqrar sektorun inkişafında xüsusi rol oynamaqdadır. Respublikamızın iqtisadiyyatında aqrar sektorda əsas kapitala investisiya qoyuluşları 2013-2020-ci illərdə yüksək volotilliklə xarakterizə olunur. (Cədvəl 2).

**Cədvəl 2.**

**2013-2020-ci illərdə kənd və meşə təsərrüfatı, balıqçılıq sahələrində əsas kapitala yönəldilmiş investisiyaların dinamikası**

| İllər / Göstəricilər | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|
| İnvestisiya qoyuluşları (mln manat) | 574.3 | 363.9 | 355.4 | 325.1 | 617.8 | 764.4 | 769.5 | 520.6 |
| Dəyişmə (+;-) %-lə | - | -36.64 | -2.34 | -8.53 | +90.0 | +23.7 | +0.6 | -32.35 |
| Cəmi investisiyalarda xüsusi çəki %-lə | 3.2 | 2.1 | 2.2 | 2.1 | 3.5 | 4.4 | 4.2 | 3.0 |

*Mənbə (2): Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəldən görünür ki, təhlil edilən ilk dörd il ərzində əsas kapitala investisiya qoyuluşlarının həcmində azalma baş vermişdir. Bu hal böhran dövründə olmuşdur. Əvvəlki il ilə müqayisədə azalma 2014-cü ildə 36,64%, 2015-ci ildə 2,34%, 2016-cı ildə isə 8,53% olmuşdur. Sonrakı üç il ərzində yenidən artım müşahidə olunmuşdur. Əvvəlki il ilə müqayisədə artım 2017-ci ildə 90%, 2018-ci ildə 23,7%, 2019-cu ildə isə 0,6% səviyyəsində baş vermişdir. Pandemiyanın yayılmış olduğu ilk il, yəni 2020-ci il ərzində təhlil edilən göstəricinin səviyyəsi 32,35 % azalmışdır.

Təhlil edilən cədvəl göstəricilərindən görünür ki, fəaliyyəti təhlil edilən sektorda əsas kapitala yönəldilmiş investisiyaların həcmi məbləğ etibarilə ən yüksək səviyyəyə 769,5 mln manata 2019-cu ildə çatmışdır. Bu, böhrandan sonrakı bərpa dövrünün yüksək göstəricisi olmaqla, böhrandan əvvəlki dövrə nisbətən 2 dəfədən də çox artmışdır.

Cədvəldə əks etdirilən və maraq doğuran göstəricilərdən biri də əsas kapitala qoyuluşların cəmi investisiyalarda xüsusi çəkisidir. Göstəricilərdən aydın olur ki, bu göstəricinin səviyyəsi 2018-ci

ildə 4,4 faiz olmaqla təhlil edilən illər içərisində ən yüksək səviyyədə olmuşdur. Bu göstəricinin səviyyəsi 2013-cü ildə 3,2% olmuş, 2014-2016-cı illərdə demək olar ki, dəyişməz qalaraq 2,2%-i ötməmiş, sonrakı illərdə isə artımla müşahidə olunmuşdur. Belə ki, 2017-ci ildə onun səviyyəsi 3,5%-ə, 2018-ci ildə 4,4%-ə, 2019-cu ildə isə 4,2%-ə çatmışdır. 2019-cu ildə əsas kapitala yönəldilən investisiya məbləği maksimuma, yəni 769,5 mln manata çatsa da, onun cəmi investisiyalardakı xüsusi çəkisi 2018-ci ildəki 4,4% səviyyəsinə çata bilməmişdir. Təhlil edilən sonuncu 2020-ci il ərzində isə həmin göstərici qlobal pandemiyanın təsiri ilə azalaraq 3% səviyyəsində formalaşmışdır.

Aqrar sənaye müəssisələrinin və kənd təsərrüfatı emalı müəssisələrinin əsas maliyyələşmə mənbələrindən biri də **kredit qoyuluşlarıdır**. Kredit qoyuluşları bir sıra parametrlərinə görə iqtisadi subyektlər üçün zəruridir. Kreditlər bir tərəfdən iqtisadi subyektlərin dövriyyə və əsas kapitala çatışmazlıqlarını tamamlayır, bir tərəfdən onların ehtiyaclarını operativ qaydada təmin edir, onların fəaliyyətlərinin genişləndirilməsinə şərait yaradır, iqtisadiyyatda yaradılan yeni dəyərin həcmini artırır və s. (4, səh 43).

Ölkəmizdə 2013-2020-ci illər ərzində kənd təsərrüfatı və emal sahəsinə kredit qoyuluşlarının vəziyyətini təhlil edərkən görürük ki, bu göstərici böhran illərində azalmaya meyilli olmuş, sonradan isə artmışdır. (Cədvəl 3).

**Cədvəl 3**

**2013-2020-ci illər ərzində Azərbaycanda kənd təsərrüfatı və emal sahəsinə kredit qoyuluşlarının dinamikası**

| İllər / Göstəricilər | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|
| Kredit qoyuluşu (mln manat) | 733.3 | 847.3 | 508.1 | 441.3 | 429.2 | 470.0 | 543.4 | 566.2 |
| Dəyişmə (+;-) %-lə | - | +15.5 | -40 | -13.15 | -2.75 | +9.5 | +15.6 | +4.2 |
| Cəmi kredit qoyuluşlarında xüsusi çəki %-lə | 4.8 | 4.6 | 2.3 | 2.7 | 3.7 | 3.6 | 3.6 | 3.9 |

*Mənbə (2): Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Təhlil edilən illər içərisində ən çox kredit qoyuluşu 847,3 mln manat olmaqla 2014-cü ildə, yəni böhran başlayan ildə qoyulmuşdur. Sonrakı üç ildə əvvəlki il ilə müqayisədə azalma 2015-ci ildə 40%, 2016-cı ildə 13,15%, 2017-ci ildə isə 2,75% olmuşdur. Böhrandan sonrakı illərdə isə, hətta pandemiyanın ilk ili olan 2020-ci ildə artım baş vermişdir. Belə ki, təhlil edilən göstərici əvvəlki il ilə müqayisədə 2018-ci ildə 9,5%, 2019-cu ildə 15,6%, 2020-ci ildə isə 4,2% artmışdır. Lakin bu artımlara baxmayaraq 2014-cü ilin səviyyəsinə nail olunmamışdır. Lakin qeyd etmək lazımdır ki, son illərdə kredit qoyuluşlarının artması müsbət bir haldır və bu aqrar sektorun iqtisadiyyatdakı rolu ilə xarakterizə olunur. Bu sahənin qeyri-neft sektorunun inkişafı ilə əlaqədar olaraq əhəmiyyətinin getdikcə artdığını nəzərə alsaq deyə bilərik ki, son illərdə bu sahədə hiss edilən kredit qoyuluşlarının artımı işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işləri ilə əlaqədar olaraq daha da artacaqdır.

Göstəriciləri təhlil edilən 3-cü cədvəldə maraq doğuran göstəricilərdən biri də kənd təsərrüfatı və emal sənayesinə kredit qoyuluşlarının cəmi kreditlərdəki xüsusi çəkisidir. Cədvəldən görünür ki, bu göstərici təhlil edilən illər içərisində ən aşağı səviyyədə 2015-ci ildə 2,3% və ən yuxarı səviyyədə 2013-cü ildə 4,8% olmaqla dəyişmişdir. Belə ki, bu göstərici 2013-cü ildə 4,8%, 2014-cü ildə 4,6%, 2015-ci ildə 2,3%, 2016-cı ildə 2,7%, 2017-ci ildə 3,7%, 2018-ci ildə 3,6%, 2019-cu ildə 3,6%, 2020-ci ildə 3,9% olmuşdur. Göründüyü kimi təhlil edilən illər içərisində, yəni 2013-2020-ci illərdə son 6 il ərzində kredit qoyuluşlarının məbləği əsaslı surətdə artmasa da, onun cəmi

kreditlərdə payı artmaqda davam etmişdir. Bu isə dövlətin yeritdiyi ümumi iqtisadi siyasətdə aqrar siyasətin yerinin, rolunun və əhəmiyyətinin artdığını göstərir.

Ölkəmizdə aqrar sektor və kənd təsərrüfatı emal müəssisələrinin maliyyə təminatında mühüm rol oynayan mənbələrdən biri də lizinq əməliyyatlarıdır. Ölkəmizdə bu əməliyyatlar təhlil edilən 2013-2020-ci illər ərzində “Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən aparılmış, sonra isə Ölkə Prezidenti cənab İlham Əliyevin 17 avqust 2020-ci il tarixli 1137 nömrəli Fərmanı əsasında bu təşkilatın adı dəyişilərək “Aqroservis” Açıq Səhmdar Cəmiyyəti adlandırılmışdır. Bu təşkilatın vasitəsilə aqrar sektorda fəaliyyət göstərən həm fərdi təsərrüfatlar, həm də ki, müxtəlif hüquqi formalarda olan bütün təşkilatlar istehsal üçün zəruri texnika və avadanlıqları əldə edə bilirlər. Bu proses bir tərəfdən kənd təsərrüfatı müəssisələri üçün maddi-texniki bazanın yaradılmasını, digər tərəfdən isə dolayı olaraq maliyyə təminatının yaxşılaşmasını təmin edir. (Cədvəl 4).

**Cədvəl 4.**

**2013-2020-ci illər ərzində Azərbaycan Respublikasında “Aqroservis” Açıq Səhmdar Cəmiyyəti tərəfindən satılmış və lizinqə verilmiş avadanlıqların dinamikası**

| İllər / Göstəricilər | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 |
|---|---|---|---|---|---|---|---|---|
| Lizinqin həcmi (mln manatla) | 37.9 | 95.1 | 59.2 | 138.7 | 269.4 | 197.9 | 130.6 | 52.3 |
| Dəyişmə (+;-) %-lə | - | +150.9 | -37.7 | +134.3 | +94.23 | -26.55 | -34.01 | -59.9 |

*Mənbə (2): Cədvəl Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.*

Cədvəldən aydın görünür ki, təhlil edilən illər ərzində, yəni 2013-2020-ci illər ərzində “Aqroservis” Açıq Səhmdar Cəmiyyəti tərəfindən satılmış və lizinqə verilmiş avadanlıq, texnika və qurğuların dinamikasında yüksək volotillik mövcud olmuşdur. Belə ki, həmin dövrdə üç il ərzində artım, dörd il ərzində isə azalma baş vermişdir. Statistikaya əsaslansaq deyə bilərik ki, təhlil edilən dövr ərzində istehlakçılara lizinqə verilən texnika və avadanlıqlar içərisində üstünlük traktorlara, kotanlara, kultivatorlara, traktor qoşqularına, səpici aqreqatlara və s. aid olmuşdur.

Cədvəldən göründüyü kimi “Aqroservis” vasitəsilə lizinqlə satılmış texnika və avadanlıqların ümumi dəyəri 2013-cü ildəki 37,9 mln manatdan 2017-ci ildəki 269,4 mln manata çatmışdır. Sonrakı illərdə isə azalma baş verərək təhlil edilən sonuncu 2020-ci ildə onun məbləği 52,3 mln manata enmişdir. Bunun isə müəyyən səbəbləri vardır. 2019-cu ildə ölkədə həyata keçirilən islahatlar çərçivəsində kənd təsərrüfatına dövlət dəstəyinin artırılması, eləcə də lizinq fəaliyyətinin aqrar sahədə daha da genişləndirilməsi məqsədi ilə verilən fərman əsasında kənd təsərrüfatı texnikası bazarında liberallaşma aparılmış, normal rəqabət mühiti yaradılması məqsədi ilə satış qiymətlərində güzəştlərin tətbiqi mexanizmi müəyyən edilmişdir. Həmin fərmanla texnika və avadanlıqları onlara ehtiyacı olanlar təkcə “Aqroservis” ASC-dən deyil, digər satış şirkətlərindən də əldə edə bilərlər. Üstəlik onlar üçün 40% güzəşt və 5 il faizsiz kreditləşmə tətbiq edilir. Bu səbəbdən də “Aqroservis” ASC üzrə lizinqə verilən texnika və avadanlıqların məbləğində azalmalar baş vermişdir. [3].

Aqrar sektorda fəaliyyət genişləndikcə, burada çalışan insanların və sahibkarların sayı çoxaldıqca texnika və avadanlıqlara ehtiyac daha da artır. Bu isə qeyri-neft sektorunun aparıcı sahəsi olan aqrar sektorda fəallığın yüksəlməsinə səbəb olur və maliyyə təminatı ilə bağlı məsələlərin aktuallığını zəruri edir.

## *Nəticə*

Aparılan araşdırmalar göstərir ki, aqrar sənaye müəssisələrinin fəaliyyəti, eləcə də kənd təsərrüfatı məhsullarının istehsalı bir çox amillərin təsiri altında baş verir. Bu amillərə təbii və iqlim

şəraitini, ölkəmizdə mövcud olan flora və faunanın bioloji xüsusiyyətlərini, mövcud təbii ehtiyatların strukturunda gedən dəyişiklikləri, torpaqda gedən proseslər nəticəsində onun məhsuldarlıq səviyyəsinin dəyişməsini, kənd təsərrüfatı məhsullarının bazara çatdırılması ilə əlaqədar olan problemləri, aqrar emal müəssisələrində fəaliyyət zamanı yaranan problemlərlə əlaqədar çətinlikləri, bu sektordakı müəssisələrin qeyri-stabil maliyyə vəziyyətini və s. aid etmək olar. Qeyd edilən bütün bu amillərin mövcudluğu aqrar sektoru riskli sahə kimi xarakterizə edir. Lakin bu amillərin təsiri nəticəsində hansı meyillərin meydana gəlməsinə baxmayaraq aqrar sektorda maliyyələşmə mənbələrinin daimi olaraq təkmilləşdirilməsinə ehtiyac vardır. Bu istiqamətdə lizinq əməliyyatlarının genişləndirilməsinə ehtiyac vardır. Çünki bu əməliyyatlar aparılarkən əvvəlcədən böyük məbləğdə vəsaitlər tələb olunmur. Bu isə aqrar sektorda çalışanların maliyyə maraqlarına uyğun gəlir.

Aqrar sektorda fəaliyyətin normallaşdırılması üçün mühüm maliyyə mənbələrindən biri kimi faktorinq əməliyyatları da çıxış edə bilər. Proses zamanı həm alıcının, həm satıcının faktorinqinin tətbiq edilməsi bu sahədə səmərə verə bilər. Belə bir proses zamanı da əvvəlcədən pul vəsaitlərinə ehtiyac olmadığı üçün tərəflərin fəaliyyətində faktorinq formasında maliyyələşmə müsbət nəticələrə gətirib çıxara bilər.

Bu istiqamətdə, yəni aqrar sənaye kompleksinin fəaliyyətinin maliyyə mexanizminin daha da yaxşılaşdırılması istiqamətində aparılan işlər həmin sektordakı müəssisələrin maliyyə resurslarına çıxış imkanlarını artıracaqdır.

Qeyd edilən istiqamətdə maliyyələşmənin daha da yaxşılaşdırılması üçün aqrar sənaye sahəsində investisiyalar, xüsusən də özəl investisiyalar üçün əlverişli mühit yaradılmalı, bu sahənin kreditləşdirilməsinə xüsusi mexanizmlərlə yanaşılmalı, operativ və mobil fəaliyyətə malik iri fermer təsərrüfatları yaradılmalı, onların müxtəlif mənbələr hesabına daimi olaraq maliyyə resursları ilə təmin edilməsinə dövlət dəstəyi artırılmalı, kənd təsərrüfatı məhsullarının istehlakçıya çatdırılması mexanizmi təkmilləşdirilməlidir.

## ƏDƏBİYYAT

1. "Azərbaycan Respublikasında Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi". Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 16 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmişdir. Bakı 2016.
2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatları. 2021.
3. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" Fərmanı. Bakı, 2019.
4. Дорожкина Н.И., Суворина Ю.С. «Особенности кредитование сельскохозяйственных производителей» Социально экономические явления и процессы. Т. 12№5, Тамбов 2017, стр 41-47.
5. https://www.Stat.gov.az/source/agriculture.

***Жаля Мамедали кызы Ефендиева***
***Азербайджанский Государственный Экономический Университет***
***efendiyeva.jala@gmail.com***

## Текущая ситуация с доступом сельскохозяйственных промышленных предприятий к финансовым ресурсам

***Резюме***

**Цель исследования:** оценить текущую ситуацию с доступом агропромышленных фирм к финансовым ресурсам и выявить новые источники финансирования.

**Методология исследования:** - Применение улучшений путем нового взгляда на деньги государственного бюджета, кредиты, инвестиции и средства банков, которые используются для финансирования агропромышленных предприятий.

**Важность применения исследования:** Эффективное использование средств, выделяемых из государственного бюджета на поддержку агропромышленных предприятий, а также кредитов и инвестиций, а также их участие в производственном процессе через механизмы улучшения, послужит источником повышения развитие отрасли.

**Результаты исследования:** По результатам исследования предлагается усовершенствовать существующие источники финансирования деятельности АПК, расширить лизинговые операции в данном секторе, ввести новые факторинговые операции.

**Оригинальность и научная новизна исследования:** - Наряду с государственным бюджетом, кредитами и инвестициями пропагандируется внедрение банковского лизинга и факторинга как нового источника капитала для усиления финансирования агропромышленных предприятий.

***Ключевые слова: агропромышленный комплекс, кредиты, инвестиции, субсидии, банковские и финансовые факторы.***

***Jala Mammadali Afandiyeva***
***Azerbaijan State University of Economics***
***efendiyeva.jala@gmail.com***

**Current situation of agricultural industrial enterprises access to financial resources**

***Summary***

**The study’s goal:** to assess the current situation of agro-industrial firms' access to financial resources and to identify new funding sources.

**Methodology of the research:** - Application of improvements by taking a fresh look at state budget monies, loans, investments, and bank funds, all of which are used to fund agro-industrial businesses.

**Importance of research application**: The efficient use of money given from the state budget to support agro-industrial firms, as well as loans and investments, as well as their participation in the production process through improvement mechanisms, would serve as a source of enhancing the sector's development.

**Results of the research**: As a consequence of the study’s findings, it is proposed to improve existing sources of finance for agro-industrial complex activities, expand leasing operations in this sector, and introduce new factoring operations.

**Originality and scientific novelty of the research**: - Along with the public budget, loans, and investments, the introduction of bank leasing and factoring activities is advocated as a new source of capital to strengthen the financing of agro-industrial firms.

***Key words: agro-industrial complex, loans, investment, subsidies, banking and financial factors.***